INTERNATIONAL MONETARY FUND
EXTERNAL RELATIONS DEPARTMENT

Pres Reliz № 11/44
TƏXİRƏSALINMADAN NƏŞR OLUNMALIDIR
15 fevral, 2011-ci il

Beynəlxalq Valyuta Fondu
Vaşinqton, ABŞ

**BVF missiyasının Azərbaycan Respublikasına səfərinin yekunları üzrə bəyanat**

*2011-ci il, 7-15 fevral tarixində cənab Nadim İlahinin rəhbərliyi altında Beynəlxalq Valyuta Fondunun (BVF) missiyası Bakıya işgüzar səfər etmişdir. Missiya yüksək dövlət rəsmiləri, özəl sektor, vətəndaş cəmiyyəti və diplomatik korpusun nümayəndələri ilə görüşmüşdür. Aparılan müzakirələr 2011-ci ilin ikinci yarısında gözlənilən 2011-ci il üzrə IV Maddə məsləhətləşmələri üçün baza yaradır. Səfərin yekununda cənab Nadim İlahi aşağıdakı bəyanatı təqdim etmişdir.*

"Azərbaycan iqtisadiyyatının qlobal iqtisadi böhrandan sonra bərpası davam edir. 2010-cu ildə qeyri-neft sektorunda yüksək iqtisadi artım tempi müşahidə olunmuş və bu artım geniş dövlət investisiya xərcləri ilə əhəmiyyətli dərəcədə stimullaşdırılmışdır. Əsasən, qlobal ərzaq qiymətlərinin qalxması üzündən 2010-cu ildə inflyasiya yüksək templə artmışdır. İnflyasiya gözləntilərinin möhkəmlənməsi ilə bağlı artan əlamətlər müşahidə olunur.

2011-ci ilin perspektivləri də ümidvericidir, lakin 2011-ci ilin sonuna 10%-ə çatacağı gözlənilən artan inflyasiya tempi makroiqtisadi risklər yaradır. Rəsmi orqanların əsas vəzifəsi inflyasiya gözləntilərini məhdudlaşdırmaqdır; büdcə-vergi siyasəti isə tələb ilə bağlı təzyiqləri zəiflətməyə yönəldilməlidir.

Neft gəlirlərindən maliyyələşən büdcə ekspansiyası son illərdə qeyri-neft sektoru artımının əsas aparıcı qüvvəsi olmuşdur, lakin iqtisadiyyatın hərarətinin yüksəlməsi ilə bağlı olan artan risklər 2011-ci ildə ehtiyatlı siyasətin həyata keçirilməsini tələb edir. 2010-cu ildə xərclərin məhdudlaşdırılması qeyri-neft kəsirinin gözləniləndən daha az olması ilə nəticələnmiş, bu isə öz növbəsində inflyasiya səviyyəsini məhdudlaşdırmağa kömək etmişdir. BVF missiyası 2011-ci ildə də xərcləri məhdudlaşdırmağı tövsiyə edir və rəsmi orqanların büdcə xərclərini iqtisadiyyatın xərcləri mənimsəmə imkanlarına uyğunlaşdırmaq niyyətini alqışlayır. Hətta yeni karbo-hidrogen ehtiyatları perspektivi gerçəkləşərsə belə, orta müddətli dövrdə büdcənin davamlılığını təmin etmək tələb olunur. Buna nail olmaq üçün qeyri-neft gəlirləri artırılmalı, dövlət xərclərinin effektivliyi yüksəldilməli və davamlı özəl qeyri-neft sektorunun inkişafının davam etməsi üçün şərait yaradılmalıdır.

2011-ci ildə iqtisadiyyatın hərarətinin yüksəlməsini göstərən əlamətlər pul-kredit siyasətini sərtləşdirməyi tələb edir. Bu yaxınlarda mərkəzi bankın intervensiya dərəcəsinin yüksəldilməsi və daha çevik məzənnə siyasətinə keçid düzgün tədbirlərdir və bu addımlara paralel olaraq, iqtisadi siyasət tədbirləri daha sıx əlaqələndirilməli,

inflyasiya hədəfinin təyin edilməsi sisteminə keçilməli, habelə bank sisteminin məzənnə risklərinin öhdəsindən gəlmə bacarığı yaxşılaşdırılmalıdır. BVF missiyası Mərkəzi Bankın likvidliyi sterilləşdirmək planını alqışlayır.

Maliyyə sistemi qlobal böhranın öhdəsindən gəlmiş və bu yaxınlarda rəsmi orqanlar tərəfindən nəzarətin gücləndirilməsi üçün bir sıra addımlar atılmışdır. Maliyyə sistemin likvidlik və kapitalizasiya səviyyəsi adekvat olsa da, özəl sektora verilən kreditlərin artım tempi aşağıdır. BVF missiyası rəsmi orqanların Azərbaycan Beynəlxalq Bankını restrukturizasiyadan sonra özəlləşdirmək niyyətini dəstəkləyir və maliyyə sabitliyinin təmin edilməsi üçün həmin bankda tənzimləmə proseslərini başlamaq üçün təcili tədbirlər görməyə çağırır.

Qlobal ərzaq qiymətlərinin kəskin bahalaşması yüksək inflyasiyanın təsirinə ən çox məruz qalan yoxsul təbəqələr üçün əlavə ünvanlı sosial köçürmələrin ayrılmasını tələb edəcəkdir. Bu yaxınlarda rəsmi orqanlar tərəfindən dövlət orqanlarında inhisarçılıq və korrupsiyanın qarşısının alınması üçün aparılan kampaniya BVF missiyası tərəfindən alqışlanır; iqtisadiyyatdakı pozuntuları aradan qaldırmaq və dövlət sektorunun effektivliyini artırmaq üçün bu istiqamətdə kompleks tədbirlər həyata keçirilməlidir.

BVF missiyası rəsmi orqanlara makroiqtisadi sabitliyin saxlanılması, idarəetmənin keyfiyyətinin yaxşılaşdırılması və geniş əsasda yüksək artım tempinin təmin olunmasında uğurlar arzulayır”.